AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 SENTYABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 207 (6240) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub

## *Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib*





**Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.

Hərbi hissənin komandiri andiçmə mərasiminə hazırlıq barədə Ali Baş Komandana məruzə etdi.

**(davamı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Çinin Sinxua xəbər agentliyinin baş redaktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Çin Xalq Respublikasının Sinxua xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Çinin Sinxua xəbər agentliyinin Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə yaxşı əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı Sinxua xəbər agentliyinin baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən sonra bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etdi. Çin-Azərbaycan əlaqələrinin çox uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Çin Xalq Respublikasına rəsmi səfərini məmnunluqla xatırlayaraq həmin səfərin çox yaxşı nəticələr verdiyini vurğuladı. İki ölkə arasında ticarət əlaqələrinin inkişafı üçün çox yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı qarşılıqlı ixracın artırılması üçün əməli işlərin aparıldığını dedi. Turizm sahəsində də əməkdaşlıq üçün böyük potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, Çin vətəndaşları Azərbaycana elektron viza vasitəsilə rahat gələ bilərlər. Dövlətimizin başçısı turizmin inkişafında xəbər agentliklərinin və mətbuatın böyük rolunu qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin, eyni zamanda, nəqliyyat sahəsində uğurlu əməkdaşlıq etdiyini, Çindən Azərbaycan ərazisindən dünya bazarlarına çıxarılan məhsulların sayının və həcminin artdığını vurğuladı.

Qəbula görə Çin nümayəndə heyəti adından dövlətimizin başçısına minnətdarlığını bildirən Sinxua xəbər agentliyinin baş redaktoru Hi Pinq bunu Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına verdiyi çox böyük önəmin göstəricisi kimi dəyərləndirdi. Hi Pinq Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi. Sinxua xəbər agentliyinin baş redaktoru, öz növbəsində, bildirdi ki, 2015-ci ildə Prezident İlham Əliyevin Çinə səfəri zamanı Çin Xalq Respublikasının sədri Si Cinpinlə görüşü və orada imzalanan əməkdaşlıq sazişləri əlaqələrimizin inkişafına çox böyük təkan verib. O qeyd etdi ki, iki ölkənin dövlət rəhbərlərinin fəaliyyəti nəticəsində son illər Azərbaycan-Çin münasibətlərinin inkişafı uğurla davam edir. Ölkəmizdə keçirdiyi görüşlərdən danışan Hi Pinq Sinxua ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi arasında əməkdaşlıq haqqında imzalanan sənədlərin əhəmiyyətini qeyd edərək bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Qonaq Azərbaycanda çalışan Çin şirkətlərinin fəaliyyəti ilə yaxından tanış olduqlarını da məmnunluqla qeyd etdi. Sinxua xəbər agentliyinin baş redaktoru Çinin "Bir kəmər-bir yol" təşəbbüsü çərçivəsində ölkələrimiz arasında münasibətlərin daha sürətlə inkişaf etdiyini bildirdi.

**AZƏRTAC**

## Çili Respublikasının Prezidenti Zati-aliləri cənab Sebastian Pinyeraya

Hörmətli cənab Prezident,

Çili Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 sentyabr 2018-ci il.**

## Abşeron rayonunun Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (16 km)-Masazır-Novxanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Yetmiş beş min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (16 km) - Masazır-Novxanı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,8 milyon (bir milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 sentyabr 2018-ci il.**

# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub

## *Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib*

















**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev şəxsi heyəti salamladı.

Sonra döyüş bayrağı hərbi marşın sədaları altında sıra meydanına gətirildi.

Bunun ardınca Vətən uğrunda həlak olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, dövlət himni səsləndi.

Daha sonra gənc əsgərlər and içdilər.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən mərasimdə and içən gənc əsgərlər sırasında Azərbaycan Prezidentinin oğlu, burada hərbi xidmət keçən Heydər Əliyev də var.

**(davamı 3-cü səhifədə)**

# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub

## *Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib*
















(əvvəli 2-ci səhifədə)

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti təbrik edərək dedi: Əziz əsgərlər, sizi hərbi and içməyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

Hərbi hissənin şəxsi heyəti təntənəli marşla tribunanın qarşısından keçdi.

Gənc əsgərlərin andiçmə mərasimində iştirak edən valideynlər Prezident İlham Əliyevlə görüşüb söhbət etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**

### Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ələt azad iqtisadi zonasının (bundan sonra - Azad Zona) inkişafının təmin edilməsi məqsədi ilə aşağıdakı tərkibdə İşçi qrup yaradılsın:

**İşçi qrupun rəhbəri**

**Valeh Ələsgərov** - *Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini*

**İşçi qrupun üzvləri**

**Samir Nuriyev** - *Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədri*

**Kərəm Həsənov** - *Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri*

**Əli Abdullayev** - *Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini*

**Azər Bayramov** - *Azərbaycan Respublikası maliyyə nazirinin müavini*

**Niyazi Səfərov** - *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*

**Rauf Hacıyev** - *Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*

**Süleyman Mikayılov** - *Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı*

**Saleh Məmmədov** - *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri*

**Qorxmaz Hüseynov** - *"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri*

**Balababa Rzayev** - *"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti*

**Cavid Qurbanov** - *"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

**Taleh Ziyadov** - *"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru*

**Vüqar Əhmədov** - *"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini*

**Əkbər Hacıyev** - *"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru.*

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış İşçi qrup müvafiq sahədə nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə on ay müddətində aşağıdakıları hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

*2.1.* Azad Zonanın təkmilləşdirilmiş mərhələli inkişaf konsepsiyasını və onun həyata keçirilməsinin ətraflı planını;

*2.2.* Azad Zonanın ərazi sərhədləri, həmin sərhədlər daxilində ilkin mərhələdə inkişaf etdirilməli olan və perspektiv inkişaf üçün nəzərdə tutulan ərazi hissələrinin hüdudları, Azad Zona ərazisinin zonalaşdırılması (yaşayış, ictimai-işgüzar, rekreasiya, istehsalat, nəqliyyat infrastrukturu, mühəndis infrastrukturu, ehtiyat və digər zəruri zonalar) barədə təkliflərini;

*2.3.* Azad Zonanın təklif edilən ərazisində torpaq sahələri mülkiyyətçilərinin və istifadəçilərinin siyahısını;

*2.4.* Azad Zonanın ilkin mərhələdə inkişaf etdirilməli olan ərazi hissəsinə münasibətdə:

2.4.1. beynəlxalq təcrübə nəzərə alınmaqla, Azad Zonanın ərazisini və həmin ərazidə yaradılması nəzərdə tutulan infrastrukturu, habelə yerləşdiriləcək digər obyektləri özündə əks etdirən ərazi planlaşdırılması layihəsini;

2.4.2. bu Sərəncamın 2.1-ci bəndində göstərilən inkişaf konsepsiyasının həyata keçirilməsi üçün görüləcək işlərin xərcləri proqnozunu;

*2.5.* Azad Zonanın perspektiv inkişafı üçün nəzərdə tutulan ərazi hissəsinə münasibətdə:

2.5.1. mühəndis-axtarış işlərinin nəticələrini, o cümlədən mühəndis-geoloji axtarışların nəticələrini əks etdirən materialları;

2.5.2. ətraf mühitin mövcud vəziyyəti barədə məlumatları;

2.5.3. əsas mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərin, digər xidmətlərin təmin edilməsi planını və bunun üçün tələb olunan xərclər proqnozunu.

**3.** İşçi qrup bu Sərəncamın 2-ci hissəsində qeyd olunan işlərlə bağlı nüfuzlu beynəlxalq məsləhətçi şirkətlərin cəlb edilməsi üçün sifarişçiləri müəyyən etsin.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən tədbirlərin maliyyələşməsini təmin etsin.

**5.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər həmin Sərəncamda göstərilən tapşırıqların yerinə yetirilməsi üçün İşçi qrupa tələb olunduğu halda kömək etsinlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 sentyabr 2018-ci il.**

# Türkiyə KİV-ləri Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli paradı geniş işıqlandırıb







**Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli parad Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Anadolu, İHA və DHA xəbər agentlikləri, TRT HABER, HABER TÜRK, TRT AVAZ və başqa televiziya kanalları, "Yeni çağ", "Akşam", "Posta", "Hürriyyət", "Milliyyət", "Sabah", "Vətən" və digər çoxtirajlı qəzetlər Türkiyə dövləti başçısının Azərbaycana səfərinə, Bakıda keçirilən parada və bu təntənəli mərasimdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakına geniş yer ayırıblar.

Anadolu agentliyi mövzu ilə bağlı 40 foto və 3 video-material yayıb. TRT HABER kanalı paradın açılış mərasimini birbaşa translyasiya edib. Bundan başqa, TRT-nin baş direktoru İbrahim Erenin layihə rəhbərliyi ilə bu kanal Bakının işğaldan azad olunmasının 100-cü ildönümünə həsr edilən bayram proqramı hazırlayıb.

Mövzunu manşet materialı kimi təqdim edən "Vətən", "Milliyyət", "Sabah" və digər qəzetlər "İşğal bitmədən sərhədlər açılmaz" başlığı ilə təqdim etdikləri yazılarda dövlət başçılarının çıxışlarındakı mühüm məqamları alt başlıqlarla türkdilli oxucuların diqqətinə çatdırıblar.

Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışında Dağlıq Qarabağ problemi ilə bağlı səsləndirdiyi fikirləri təqdim edən "Yeni çağ" qəzeti həmin yazı ilə yanaşı, təcavüzkar Ermənistanın işğalçı ordusunun cəbhə bölgəsində mülki azərbaycanlı əhalini atəşə tutmasına dair məlumat yayıb.

Yayılan materiallarda bildirilir ki, Azərbaycanın və Türkiyənin dostluq və qardaşlıq münasibətləri hazırkı dövrdə tarixin bütün dövrlərində olduğundan daha möhkəmdir. Bu, sıx, təmənnasız və tarixi əhəmiyyət daşıyan əlaqələrin qorunmasında və inkişafında Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səmimi dostluq və qardaşlıq münasibətləri böyük gücə malikdir. Türkiyə KİV-lərinin Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışındakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı məqamlara geniş yer ayırması bütövlükdə Türkiyə xalqının Azərbaycana qardaşlıq münasibətinin təzahürüdür.

**AZƏRTAC**

# Azərbaycan Prezidentinin Mətbuat katibi Ermənistan baş nazirinin cəfəng bəyanatını şərh edib

**Birinci dəfə deyil ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Trend-ə Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi Azər Qasımov Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevin oğlu Heydər Əliyevin Silahlı Qüvvələrdə xidmət keçməsi ilə bağlı cəfəng bəyanatını şərh edərkən deyib.

Azər Qasımov qeyd edib: "Birinci dəfə deyil ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir. Əvvələ, bu, onu göstərir ki, Paşinyan siyasətdə təsadüfi bir fiqurdur, beynəlxalq münasibətlərdən xəbərsizdir. Paşinyan Azərbaycanın daxili işlərinə müntəzəm olaraq öz burnunu soxur. Bildirmək istəyirik ki, əgər Azərbaycan Ermənistanın daxili işlərinə müdaxilə etsə, Paşinyan hakimiyyətinin ömrü uzun olmayacaq. Sarkisyan diktatura rejiminin çökməsi buna sübutdur. Sadəcə olaraq, indiki şəraitdə Paşinyan rejiminin çökməsi Azərbaycana sərf etmir. Ermənistanda Paşinyanın diktaturası nə qədər çox davam edərsə, bu ölkənin problemləri bir o qədər də çox olacaq. Paşinyan xarici səfərlərində yaltaqlanmaqla, özünü alçaltmaqla, özünü qul kimi aparmaqla istədiyinə nail ola bilməz. Paşinyanın yeni diktatura rejimi Ermənistanı uçuruma aparır. Məhz buna görə də Azərbaycan tərəfi Paşinyan hakimiyyətinin çökməsi üçün hələlik hər hansı bir addım atmır.



Paşinyanın növbəti sarsaq açıqlaması Prezident İlham Əliyevin oğlu Heydər Əliyevin Silahlı Qüvvələrdə xidməti ilə bağlıdır. Bildirmək istəyirik ki, Heydər Əliyev öz fiziki keyfiyyətlərinə və hazırlığına görə Azərbaycanın ən döyüş qabiliyyətli hərbi hissələrinin birinə hərbi xidmətə çağırılıb və sentyabrın 16-da keçirilən andiçmə mərasimi bu hərbi hissənin Azərbaycanın Silahlı Qüvvələrinin aparıcı hissələrinin biri olduğunu nümayiş etdirdi. Paşinyanın oğluna gəldikdə isə, bizdə olan məlumata görə, o, təmas xəttindən təxminən 50 kilometr məsafədə Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunda Ermənistanın hərbi hissələrinin birinə yazılıb və burada, əsasən, məişət məsələləri ilə məşğuldur. Bu hissəyə yazılmasına baxmayaraq, vaxtının çoxunu Xankəndidə keçirir. Ümumiyyətlə, Paşinyanın oğlunun hərbi xidməti ilə bağlı aparılan ucuz təbliğat növbəti populist və aşağı keyfiyyətli şoudan başqa bir şey deyil.

Paşinyanın necə şoumen olması bizə yaxşı bəllidir. Azərbaycan Respublikası Prezidentinin Mətbuat xidmətinin əməkdaşları iyulda Brüsseldə keçirilmiş NATO Zirvə toplantısının kuluarlarında Paşinyanın cılız və yaltaq hərəkətlərini öz gözləri ilə görüblər. NATO-ya üzv dövlətlərin rəhbərlərinə yaxınlaşıb onlarla şəkil çəkdirməyi Paşinyan Ermənistanda bu liderlərlə keçirilmiş görüşlər kimi təqdim edib. Belə gülməli hərəkətlər Paşinyanın çox pis şoumen olduğunu göstərir.

Sonda bir daha bildirmək istəyirik ki, əgər Paşinyan bundan sonra da öz kreslosunda oturmaq istəyirsə, ona Azərbaycanın daxili işlərinə burnunu soxmamasını məsləhət görürük".

**AZƏRTAC**

*Polkovnik Eray Güçlüer:*

# Bakıda keçirilən hərbi parad birlik və qardaşlıq gücünün nümayişidir



**Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli paradın ümumi mahiyyəti birlik və qardaşlıq gücünün nümayişidir.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində türkiyəli hərbi ekspert, sosial elmlər üzrə doktor, ehtiyatda olan polkovnik Eray Güçlüer deyib.

Bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf modeli iki qardaş ölkənin eyni yüksəlişlə irəli getməsini təmin edib. Əhalinin sosial rifahının təmin olunması, ölkədə müasir həyat tərzinin qurulması, ümumdaxili məhsulun həcminin artması və s. elementlərin inkişafın əsas göstəriciləri olduğunu qeyd edən ekspert fikirlərini belə davam etdirib: "Bütün bu göstəricilərdən daha irəlidə olanı isə ölkənin və xalqın təhlükəsizliyinin təmin olunmasıdır ki, bunun ana sütununu qüvvətli ordu təşkil edir. Azərbaycan ordusu bütün parametrləri ilə dinamik inkişafdadır. Paradda göstərilənlər bunun yalnız görünən tərəfidir".

Eray Güçlüer bildirib ki, Bakıda keçirilən paradda Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birlikdə olması yalnız hərbi güc nümayişi deyil. Eyni zamanda xalqlarımızın sifarişi ilə qəbul olunmuş tarixi qərarların mənəvi göstəricisidir.

Qafqaz İslam Ordusunun tarixi rəşadətinin hər zaman xoş sözlərlə xatırlanacağını qeyd edin ekspert fikirlərini belə tamamlayıb: "Unutmamalıyıq ki, düşmən 100 il əvvəl olduğu kimi indi də məkrli, hiyləgər, zalım və qəddardır. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın paraddakı çıxışlarında səsləndirilən fikirlər hər bir azərbaycanlı və türkiyəli üçün örnək olmalıdır. İnkişaf, sabitlik və güc işığlı gələcəyimizin yeganə təminatıdır".

**AZƏRTAC**

# Müdafiə naziri düşmənə qarşı daha sərt tədbirlərin görülməsi ilə bağlı konkret tapşırıqlar verib



**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən bölmələrdə olub, şəxsi heyətin döyüşə hazırlıq vəziyyətini yoxlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bir neçə gündür ki, Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən tərəfindən atəşə məruz qalan yaşayış məntəqələrimiz istiqamətindəki bölmələrdə olan müdafiə naziri, vəziyyətlə bağlı məruzələri dinlədikdən sonra qarşı tərəfin mövqelərini müşahidə edib.

Ön xətt mövqelərindəki vəziyyətlə yerində tanış olan nazir dinc əhalinin Ermənistan qoşunları tərəfindən atəşə tutulmasına qarşı təxirəsalınmaz cavabın verilməsi və daha sərt tədbirlərin görülməsi ilə bağlı həmin istiqamətlərdə yerləşən bölmələrə konkret tapşırıqlar verib.

Hərbi qulluqçularla görüşərək onların qayğıları, sosial-məişət şəraiti ilə maraqlanan general-polkovnik Z.Həsənov şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

**AZƏRTAC**

*Müdafiə Nazirliyi:*

## Azərbaycan Ordusunun bölmələri heç bir itki verməyib və cəbhə xətti boyu əməliyyat şəraitinə tam nəzarət edir

"Mənim addımım" blokunun sentyabrın 16-da Yerevanda keçirilən seçkiqabağı təbliğatı zamanı çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyanın guya son üç gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən 3 Azərbaycan əsgərinin öldürülməsi barədə dediklərinə cavab olaraq Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, xaosun hökm sürdüyü Ermənistanda həmişə olduğu kimi, bu dəfə də ölkənin hərbi rəhbərliyi baş nazirə aldadaraq ona yalan məlumat verib.

Ermənistanın baş naziri isə yalan məlumatlardan belə yararlanaraq onları böyük həvəslə öz xalqına çatdırmaqla ictimaiyyətin diqqətini apardığı uğursuz siyasətindən yayındırmağa çalışır.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun bölmələri heç bir döyüş itkisi verməyib və cəbhə xətti boyu əməliyyat şəraitinə tam nəzarət edir.

**AZƏRTAC**

*MN:*

## Son günlər Ermənistan tərəfi 4-5 hərbi qulluqçusunu itirib, lakin bunu bütün səylərlə ictimaiyyətdən gizlədir

**Azərbaycan Müdafiə Nazirliyi erməni tərəfinin guya son günlər Ermənistan silahlı qüvvələri tərəfindən 3 Azərbaycan əsgərinin öldürülməsi barədə yaydığı məlumata münasibət bildirib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, düşmən tərəfinin yaydığı bu məlumat həqiqətə uyğun deyil, dezinformasiyadır və özlərinin verdiyi itkiləri ört-basdır etmək məqsədilə daxili auditoriya üçün tirajlanır.

Azərbaycan tərəfindən fərqli olaraq, əksinə, son günlər Ermənistan tərəfi 4-5 hərbi qulluqçusunu itirib, lakin bunu bütün səylərlə ictimaiyyətdən gizlədir. O ki qaldı, yaralanan erməni mülki şəxsə, Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun bölmələri mülki əhaliyə və yaşayış məntəqələrinə atəş açmır.

**AZƏRTAC**

*İspaniya KİV-ləri:*

# Prezident Ərdoğan Azərbaycanın ərazi bütövlüyünün bərpasına Türkiyənin dəstəyini bir daha vurğuladı

**İspaniyanın nüfuzlu "El Confidencial" və "El Diario" qəzetlərinin elektron versiyasında "EFE" xəbər agentliyinə istinadən "Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə sadiq qaldığını bir daha vurğuladı" sərlövhəli məqalə yerləşdirilib.**

Məqalədə bildirilir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə Türkiyənin sadiq qaldığını bir daha bəyan edib və vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməyənədək Türkiyə-Ermənistan sərhədləri açılmayacaq.

Türkiyə Prezidenti çıxışında bildirib ki, qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Qeyd edilir ki, bunu Türkiyə Prezidenti Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda bəyan edib. O, bu paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə iştirak edib. Bakı şəhərinin ən böyük meydanı olan Azadlıq meydanında çıxış edən R.T.Ərdoğan bildirib ki, Azərbaycanın sevinci Türkiyənin sevincidir, Azərbaycanın problemi Türkiyənin problemidir.

İspan KİV-ləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından da sitatlar gətiriblər. Prezident vurğulayıb ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olub.

Məqalədə Bakının 100 il əvvəl azad edilməsi tarixindən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, onun ağır nəticələrindən bəhs olunur. Qeyd edilir ki, Ermənistan ordusu zor tətbiq etməklə Azərbaycanın Dağlıq Qarabağ regionu ilə yanaşı, "bufer zona" adı altında digər rayonlarını da işğal edib.

**AZƏRTAC**

*Sinxuanın baş redaktoru Hi Pinq:*

# AZƏRTAC ilə əməkdaşlığımız xalqlarımızın daha da yaxınlaşmasına xidmət edir

**Sinxua informasiya agentliyi Azərbaycanla bağlı məlumatları ölkənin əsas xəbər mənbəyi olan AZƏRTAC-dan alır. İki agentlik arasındakı əməkdaşlıq müqaviləsi informasiya mübadiləsini daha da genişləndirmək və birgə layihələr həyata keçirmək üçün geniş imkanlar açır.**



Bu fikirlər Çinin Sinxua agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərliyi ilə Bakıda səfərdə olan nümayəndə heyətinin AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə görüşündə səslənib.

Azərbaycanın və Çinin qədim tarixi əlaqələrə malik olduğunu deyən İdarə Heyətinin sədri Aslan Aslanov xalqlarımız arasında əlaqələrin dərinləşməsində hər iki ölkənin informasiya agentliklərinin böyük rolu olduğunu vurğulayıb. Qeyd olunub ki, AZƏRTAC ilə Sinxuanın 2003-cü ildən başlayan əməkdaşlığı dövründə birgə fotosərgilər, təqdimatlar, informasiya və təcrübə mübadiləsi həyata keçirilib. Eyni zamanda, hər iki agentlik hazırda AZƏRTAC-ın sədri olduğu iki beynəlxalq təşkilatda - Dünya Xəbər Agentlikləri Konqresində və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) sıx əməkdaşlıq edir. "Bu ilin iyununda Pekində Sinxuanın prezidenti Çay Mincao ilə görüşdə bir sıra əməkdaşlıq məsələlərini geniş müzakirə etdik. Bundan əlavə, orada Şanxay Əməkdaşlıq Təşkilatının birinci media sammiti çərçivəsində Sinxua ilə yeni əməkdaşlıq sazişi imzaladıq. Əminəm ki, bu, əlaqələrimizin inkişafı üçün yeni imkanlar açacaq", - deyə Aslan Aslanov bildirib.

Diqqətə çatdırılıb ki, Çinin "Bir kəmər - bir yol" təşəbbüsünün, həmçinin Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat marşrutlarının həyata keçirilməsi informasiya sahəsində də əlaqələrin intensivləşməsini şərtləndirir. Bununla əlaqədar Sinxuanın təsis etdiyi "Bir kəmər - bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı" alyansına AZƏRTAC-ın da qoşulacağı və dünyanın hər yerindən xəbər təchizatçıları ilə informasiya mübadiləsi aparacağı qeyd olunub.

AZƏRTAC ilə əməkdaşlığa böyük önəm verdiklərini deyən Sinxua agentliyinin baş redaktoru Hi Pinq ikitərəfli münasibətlərdəki dinamikliyi yüksək qiymətləndirdiklərini vurğulayıb. O, AZƏRTAC-ın informasiya təchizatçısı kimi inkişafının göz qabağında olduğunu söyləyib. "Sizinlə mənim Pekində imzaladığımız müqavilə informasiya mübadiləsini artırmağa yönəlib ki, bu da xalqlarımızın bir-birini daha yaxından tanımasına, ölkələrimizin iqtisadi və mədəni həyatındakı hadisələrin qarşılıqlı işıqlandırılmasına böyük töhfə olacaq", - deyə Hi Pinq qeyd edib.

Baş redaktor AZƏRTAC-ın OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi üçün irəli sürdüyü təklifləri Sinxuanın dəstəklədiyini bildirib. AZƏRTAC-ın Çin dilində informasiya yayımının onlar üçün önəmli olduğunu deyən Hi Pinq bu istiqamətdə də lazımi dəstək göstərməyə hazır olduqlarını söyləyib.

Görüşdə birgə layihələrin reallaşdırılması, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın fəaliyyətinin artırılması, müasir medianın inkişaf meyilləri barədə fikir mübadiləsi aparılıb, əməkdaşlığın daha da dərinləşdirilməsi üçün səylərin gücləndirilməsinin vacibliyi qeyd olunub.

**AZƏRTAC**

# İçərişəhərlə tanışlıq Çinin Sinxua agentliyinin nümayəndələrində zəngin təəssürat yaradıb

**Ölkəmizə səfərə gəlmiş Çin Xalq Respublikasının Sinxua xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 17-də İçərişəhərlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Qoşa qala qapısı meydanından başlayan tanışlıq zamanı qonaqlara Qala divarlarının inşası barədə geniş məlumat verilib.

Nümayəndə heyətinə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksində olublar. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Sonra Qız qalası ilə tanış olan qonaqlara Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

Qız qalasının yaxınlığındakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonaqların böyük marağına səbəb olub.

İçərişəhər qonaqlarda zəngin təəssürat yaradıb.

**AZƏRTAC**

# "Akademik Rəfiqə Əliyeva adına Qızıl orden" ictimai mükafatı təsis edilib

**"Mənim Azərbaycanım" beynəlxalq jurnalının redaksiya şurasının növbəti iclasında görkəmli alim Rəfiqə Əliyevanın anadan olmasının 86 illiyi şərəfinə "Akademik Rəfiqə Əliyeva adına Qızıl orden" ictimai mükafatı təsis olunması haqqında qərar qəbul edilib.**



AZƏRTAC xəbər verir ki, iclasda "Mənim Azərbaycanım" jurnalının redaksiya şurasının fəxri üzvləri - Bakı Beynəlxalq Multikulturalizm mərkəzinin Moldova, Ukrayna, Rumıniya, Macarıstan və Bolqarıstan üzrə rəsmi nümayəndəliyinin rəhbəri, tanınmış hüquqşünas, redaksiya şurasının fəxri sədri Aureliya Qriqoriu, Azərbaycanın Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tətbiqi sənət və dizayn kafedrasının dosenti, jurnalın redaksiya şurasının sədri Fəxriyyə Xələfova, BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor, "Mənim Azərbaycanım" jurnalının redaksiya şurasının fəxri üzvü Sevinc Hacıyeva, BDU-nun Qafqaz xalqlarının tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi, "Mənim Azərbaycanım" jurnalının redaksiya şurasının fəxri üzvü İradə Hüseynova, "Mənim Azərbaycanım" beynəlxalq jurnalının təsisçisi və baş redaktoru Emil Nəsirli, "Mənim Azərbaycanım" beynəlxalq jurnalının baş redaktorunun birinci müavini Fikrət Nağıyev və başqaları iştirak ediblər.

Jurnalın redaksiya şurasının sədri Fəxriyyə Xələfova tədbiri açaraq məşhur alim, akademik Rəfiqə Əliyevanın səmərəli elmi fəaliyyəti, onun respublikada kimya elminin inkişafına töhfəsi barədə söhbət açıb. Fəxriyyə Xəlefova deyib: "Azərbaycanda analitik kimya sahəsində ilk və yeganə qadın akademik Rəfiqə Əliyeva böyük elmi nailiyyətlər qazanıb. O, elmin və təhsilin vəhdətini yaratmış unudulmaz şəxsiyyətlərdən biridir".

Jurnalın redaksiya şurasının fikrincə, akademik Rəfiqə Əliyeva adına Qızıl orden elmi-tədqiqat fəaliyyətində məxsusi xidmətləri olan, mədəniyyətin və incəsənətin inkişafına, xalqlar arasında sülhün, dostluğun və əməkdaşlığın möhkəmlənməsinə görkəmli töhfələr vermiş, parlaq idman nailiyyətləri qazanmış, elmi-texniki tərəqqiyə şərait yaradan sanballı kəşflər etmiş, maarif, təhsil, ictimai həyat sahələrində və sosial sferada nailiyyətlərə imza atmış vətəndaşların təltif olunması üçün təsis edilib.



"Mənim Azərbaycanım" jurnalının redaksiya şurasının fəxri üzvü Aureliya Qriqoriu qeyd edib ki, akademik Rəfiqə Əliyeva adına Qızıl orden ilə təkcə Azərbaycan vətəndaşları deyil, digər ölkələrin vətəndaşları da təltif edilə bilər. Namizədliyi irəli sürülən şəxs bu ordenlə "Mənim Azərbaycanım" beynəlxalq jurnalının ekspert-redaksiya şurasının qərarına müvafiq olaraq təltif edilir.

Akademikin ailəsinin adından çıxış edən qızı - BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva tədbir iştirakçılarına minnətdarlığını bildirib və akademik Rəfiqə Əliyevanın məhsuldar elmi fəaliyyəti, onun yüksək mənəvi keyfiyyətləri barədə söhbət açıb, alim haqqında xatirələrini bölüşüb. Sevinc Hacıyeva deyib: "Rəfiqə xanım elə şəxsiyyətlərdəndir ki, onlar dünyalarını dəyişəndən sonra da həyatları davam edir. Ölkəmizin ictimai-sosial həyatında, elmin və təhsilin inkişafında mühüm rol oynamış Rəfiqə xanım onu tanıyanların hər birinin xatirəsində qayğıkeş pedaqoq və alim kimi yaşayır, bu insanlar onu ən xoş duyğularla xatırlayırlar. Rəfiqə xanım onların bəzilərinin müəllimi, digərlərinin elmi rəhbəri və qayğıkeş məsləhətçisi, başqaları üçün çətin, böhranlı anlarda onlara təsəlli verə biləcək dost və əvəzedilməz həmkar, nəhayət, gözəl ana idi. Həyatını kimya elminə həsr etmiş Rəfiqə Əliyeva həm də istedadlı pedaqoq olub. Yarım əsrdən artıq müddətdə pedaqoji fəaliyyətlə məşğul olmuş bu alim bütün bilik və bacarığını yüksək ixtisaslı kadrlar hazırlanmasına sərf edirdi. O, öz dərin biliklərini və zəngin təcrübəsini sonrakı nəsillərə çatdırmağı bacaran bir alim kimi böyük elmi məktəb yaradıb. Onun şagirdləri təkcə Azərbaycanda deyil, MDB-nin, ABŞ-ın, Kanadanın, Yaponiyanın, Cənubi Koreyanın, Avstraliyanın, İsrailin, Türkiyənin və Avropa ölkələrinin aparıcı elmi mərkəzlərində və universitetlərində çalışırlar. Onlar xalqımıza böyük nüfuz qazandırıblar. Bu cür tale heç də hər bir alimə qismət olmur. 450-dən çox elmi iş, 25 dərslik və dərs vəsaiti, 20 patent - bunlar Rəfiqə Əliyevanın çoxillik fəaliyyətinin diqqətəlayiq nəticələridir. Bundan əlavə, onun rəhbərliyi altında 20-dən çox fəlsəfə doktoru və elmlər doktoru hazırlanıb".

Fəxriyyə Xəlefova bildirib ki, Rəfiqə Əliyevanın şərəfinə mükafat təsis etmək təşəbbüsü təbiidir, çünki onun şəxsiyyəti hədsiz ehtirama layiqdir. Onun xatirəsi əbədiləşdirilə-cək, onun adı elm, təhsil, maarifçilik tarixinə qızıl hərflərlə yazılıb. Bu orden həm də yeni nailiyyətlər üçün əlavə stimul ola bilər. Dünya praktikasında görkəmli şəxsiyyətlərin şərəfinə ordenlər, medallar və digər mükafatlar təsis olunması metodundan tez-tez istifadə edilir.

"Mənim Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru Emil Nəsirli, Azərbaycanın Əməkdar müəllimi İradə Hüseynova, "Mənim Azərbaycanım" beynəlxalq jurnalının baş redaktorunun birinci müavini Fikrət Nağıyev və başqaları öz çıxışlarında qeyd etdilər ki, 2018-ci il sentyabrın 20-də görkəmli alim, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəfiqə Əlirza qızı Əliyevanın 86 illiyi tamam olur. "Akademik Rəfiqə Əliyeva adına Qızıl orden" mükafatının təsis olunması haqqında qərar bu yubileyə həsr edilib.

Təsadüfi deyil ki, dünya elminə qiymətli töhfələr vermiş, həyatını öz xalqına həsr etmiş insanlar heç vaxt unudulmur, onların xatirəsi əbədi yaşayır. Onlardan biri də fədakar alim və böyük pedaqoq Rəfiqə Əliyevadır. "Mənim Azərbaycanım" beynəlxalq jurnalının redaksiya şurasının üzvləri deyiblər: "Biz əminik ki, akademik Rəfiqə Əliyevanın adını daşıyan bu yüksək mükafata layiq görülmək zəmanəmizin hər bir xadimi üçün böyük şərəf olacaq".

**AZƏRTAC**

# Baş prokuror Qubada vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov sentyabrın 21-də saat 10:00-da Quba Rayon Prokurorluğunun inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Quba rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

# Azərbaycandakı müasir tələblərə cavab verən onkoloji müalicə müəssisəsi ilə əməkdaşlıq təqdirəlayiqdir

Ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş Milli Onkologiya Mərkəzi yüksək infrastruktura malikdir. Mərkəzdə gördüklərimiz bizə ən yüksək dünya standartlarının nədən ibarət olduğunu nümayiş etdirdi. Azərbaycandakı müasir tələblərə cavab verən onkoloji müalicə müəssisəsinin dünyanın aparıcı klinikalarından biri kimi qəbul olunaraq onunla əməkdaşlıq edilməsi təqdirəlayiqdir.

Bunu Bakıda keçirilən multidissplinar xərçəngin müalicəsinə həsr olunmuş beynəlxalq konfransda iştirak edən Amerika Onkoloji Tibb Bacıları Cəmiyyətinin beynəlxalq əlaqələr üzrə mütəxəssisi Stefan Tervindt kütləvi informasiya vasitələrinə müsahibəsində deyib.



Mütəxəssis konfransın təşkilinin yüksək səviyyədə olduğunu və müxtəlif ölkələrin nümayəndələri arasındakı təcrübə mübadiləsinin onkoloji xidmətlərin keyfiyyətinin artırılmasına töhfə verəcəyinə inamını ifadə edib.

**AZƏRTAC**

*Herbert Lunq:*

# Dünyanın ən yaxşı tibb mütəxəssisləri Azərbaycan paytaxtına gəliblər



**Azərbaycan Milli Onkologiya Mərkəzi (MOM) və Amerika Klinik Onkologiya Cəmiyyəti (American Society of Clinical Oncology, ASCO) tərəfindən Bakıda təşkil edilmiş "Xərçəngin multidissiplinar beynəlxalq müalicəsi" mövzusunda ikigünlük beynəlxalq konfrans çox yüksək səviyyədə təşkil olunub. Buna görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Dünyanın ən yaxşı tibb mütəxəssisləri Azərbaycan paytaxtına gəliblər.**

Konfransın iştirakçısı, Çinin Honqkonq Universitetinin professoru, Klinik Tədqiqatlar Mərkəzinin direktorunun müavini Herbert Lunq bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Herbert Lunq daha sonra deyib: "Bu cür elmi-praktiki konfransların faydalı olması şübhəsizdir. Onlar, ilk növbədə, elm adamları üçün zəruridir, bu tədbirlər elmin özünün inkişafı üçün də böyük əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, bəzən elmi konfranslarda iştirak etmək elmi fəaliyyətin özündən daha səmərəli olur. Belə konfranslar alimlər, tədqiqatçılar, ayrı-ayrı sahələr üzrə həkimlər arasında əlaqələrin nizamlanması, elmin və təbabətin qarşılıqlı əlaqəli sahələrində ən yeni nailiyyətlərin müzakirə edilməsi üçün imkan yaradır. Bundan əlavə, elmi konfranslar müxtəlif ölkələrin alimləri tərəfindən bir sıra mövzuları, o cümlədən onkoloji patologiyaların diaqnostikasının və müalicəsinin təfsilatını, təbabətin və səhiyyənin müxtəlif aktual problemlərini, onkologiya elmi qarşısında duran vəzifələri, habelə onların potensial həll yollarını müzakirə etməyə imkan yaradır. Elmi konfranslar həm də mütəxəssislərin öz təcrübəsini bölüşmək və öz elmi fəaliyyətində əsərlərinə istinad edə biləcəkləri adlısanlı alimlərin təcrübəsini öyrənmək imkanı ilə diqqəti cəlb edir. Nəticə etibarilə elmi prosesin keyfiyyəti qat-qat artır".

**AZƏRTAC**


TƏKRAR

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika QİÇS-lə mübarizə mərkəzi açıq tender elan edir

Tender 2 (iki) lot üzrə aparılır:

Lot-1. Mətbəə xərcləri

Lot-2. Sair xərclər

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 50 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Mir Qasımov küçəsi 1/8 ünvanından ala bilərlər.

Bank: Beynəlxalq Bankın Nəsimi filialı
Kodu: 805614
S.W.İ.F.T. BİK:AİİBAZ2X
VÖEN: 1400463891
Hesab: 33205019449702001207

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflər açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanlarından arayış;

-iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı;

-işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 oktyabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi və bank zəmanəti 23 oktyabr 2018-ci il saat 17:00-a qədər təqdim edilməlidir.

Təklif zərfləri 24 oktyabr 2018-ci il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.



TƏKRAR

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnformatika və Statistika İdarəsi açıq tender elan edir

Tender 3 (üç) lot üzrə aparılır:

Lot-1. 2018-ci ildə keçiriləcək treninqlə əlaqədar iş və xidmətlərin görülməsi, çap və əyani vəasitlərin hazırlanması.

Lot-2. Kompüter proqramlarının hazırlanması və ya onun alınması, məlumat bazarlarının hazırlanması, informasiya sistemlərinin yaradılması

Lot-3. Mətbəə xərcləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 50 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 41 ünvanından ala bilərlər.

Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
Müxbir hesabı:
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. CTREAZ22
İnformatika və Statistika İdarəsi
Hesab N AZ70CTRE00000000000002128205
VÖEN: 1400073901

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

-işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 oktyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23 oktyabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 oktyabr 2018-ci il tarixdə, saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Əmrahov Mehdi

Tender Komissiyası.

# Ali məktəblər arasında ən çox tələbə qəbulu Bakı Dövlət Universitetinin payına düşür





**Sentyabrın 17-də Bakı Dövlət Universitetində (BDU) 2018-2019-cu tədris ilinin başlanması və "Bilik günü" münasibətilə tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, BDU-nun rektoru, akademik Abel Məhərrəmov bu əlamətdar gün münasibətilə birinci kurs tələbələrini təbrik edib. Rektor Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində həyata keçirilən səmərəli islahatlardan, o cümlədən elm və təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıb. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı BDU-nun flaqman rolunu uğurla davam etdirdiyini, ölkəmizin milli universiteti statusunu qoruduğunu qeyd edib.

Universitetin tarixi keçmişi, müasir inkişaf mərhələləri barədə məlumat verən akademik A.Məhərrəmov bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında respublika ali məktəbləri arasında ən çox tələbə qəbulunun Bakı Dövlət Universitetinin payına düşdüyünü, bakalavriat və magistratura səviyyəsində qəbul olunanların (BDU-nun Qazax filialı da daxil olmaqla) 6220 nəfər təşkil etdiyini bildirib. Məlumat verilib ki, BDU-ya daxil olan tələbələrdən 1982-si 500-dən, 461-i 600-dən, 131-i 650-dən artıq, üç nəfər isə 700 bal toplayıb, 12 nəfər Prezident təqaüdünə layiq görülüb. Ümumilikdə universitet tələbələrinin sayı 23 minə qədərdir.

Universitetin 100 illik tarixi yubileyə hazırlaşmasından bəhs edən rektor yubiley ərəfəsində yeni yataqxana şəhərciyinin və Yüksək Texnologiyalar Mərkəzinin istifadəyə veriləcəyini bildirib.

Daha sonra sosial elmlər və psixologiya fakültəsinin dekanı, professor Hikmət Əlizadə, 700 bal toplayaraq hüquq fakültəsinin tələbəsi adını qazanmış Əzim Əzizli və valideyn Mahirə Əhmədova çıxış ediblər. Onlar bu qocaman ali təhsil ocağı, o cümlədən yeni tədris ili ilə bağlı xoş arzu və istəklərini bildiriblər.

Qeyd edək ki, bu il BDU-nun Qazax filialına qəbul olunan tələbələrin sayında artım müşahidə edilib. Belə ki, bu il filiala 561 nəfər tələbə qəbul olunub. Bu rəqəm ötən illə müqayisədə 172 nəfər çoxdur. Beləliklə, BDU-nun Qazax filialında cari tədris ilində 17 ixtisas üzrə təhsil alanların sayı 1006 nəfərə çatıb.

Bu tədris ilində BDU-nun "SABAH" qruplarına qəbul olunan tələbələrin sayı 250-dən 280-ə yüksəlib. Onlardan 264-ü BDU-nun tələbələridir. Ümumilikdə, BDU-nun 10 ixtisas üzrə "SABAH" qrupları tələbələrinin sayı ötən illə müqayisədə 106 nəfər artaraq 701-ə çatıb.

Magistratura səviyyəsinə qəbul edilənlərin sayı 776 nəfər olub. Bu da ötən illə müqayisədə 132 nəfər çoxdur. Təbiət, fundamental, humanitar və sosial elmlər sahəsi üzrə çoxprofilli ali təhsil ocağı olan BDU-nun 16 fakültəsində bakalavriat səviyyəsində 65, magistratura səviyyəsində isə 44 ixtisas və 235 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir və təhsil alan tələbələrin sayı 23 minə yaxındır.

Universitetdə təhsil alan tələbələrin təlim-tərbiyəsi ilə üç mindən çox əməkdaş, o cümlədən 1500 müəllim məşğul olur. Onlardan 300-dək əməkdaş elmlər doktoru, professor, minədək əməkdaş isə fəlsəfə doktoru, dosentdir.

**AZƏRTAC**

# Ağsunun Bico kəndində Heydər Əliyev Fondu tərəfindən inşa olunan yeni məktəb binası istifadəyə verilib






**Ağsu rayonunun ən iri yaşayış məntəqələrindən olan Bico kəndində Heydər Əliyev Fondu tərəfindən inşa olunan tam orta məktəb üçün yeni bina istifadəyə verilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, sentyabrın 17-də, ilk dərs günündə Fond tərəfindən layihələşdirilərək tikilən yeni tədris ocağının açılışı olub.

Rayon rəhbərliyinin, qonaqların, valideynlərin iştirak etdikləri mərasimdə Azərbaycanın Dövlət himni səsləndirilib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev mərasimi açaraq ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, o cümlədən Ağsuda son illər ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris ocaqlarının tikilməsi, bu sahədə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr barədə ətraflı danışıb.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov şagird və müəllimləri yeni dərs ili, eləcə də yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edib. A.Ələkbərov iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını çatdırıb.

Fond tərəfindən minlərlə layihənin reallaşdırıldığını, bu layihələrin coğrafiyasının genişləndirilərək Azərbaycanın hüdudlarını aşdığını diqqətə çatdıran A.Ələkbərov fəaliyyətin mədəniyyət, təhsil, səhiyyə, tarixi abidələrin bərpası və digər istiqamətləri əhatə etdiyini söyləyib. Vurğulayıb ki, Heydər Əliyev Fondunun təhsil sahəsindəki layihələri çərçivəsində ölkəmizdə 400-dən çox məktəb binası inşa olunub. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi və bu layihə çərçivəsində görülən işlər Fondun təhsilimizə, gələcəyimizə göstərdiyi qayğının nəticəsidir.

Tədbirdə məktəbin direktoru Yaşar Qarayev çıxış edərək geniş şəraiti olan təzə məktəb binası ilə yanaşı, tədris ocağının zəruri avadanlıqlarla təchiz edildiyini diqqətə çatdırıb. Buna görə kollektiv və kənd sakinləri adından Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Sonda qonaqlar binanı gəzərək yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, 2500 kvadratmetrdən çox sahəsi olan bina ikimərtəbəli, 220 şagird yerlikdir. Binada bütün zəruri inventar və avadanlıqlarla təchiz edilən 11 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, informatika kabineti, tibb otağı, emalatxana, hərbi hazırlıq otağı, akt zalı və yeməkxana var. Açıq havada 1000 kvadratmetr sahəsi olan idman meydançası qurulub.

Yeni tədris ocağı daimi su, istilik sistemi, eləcə də yanğın xəbərverici və videomüşahidə sistemləri ilə təmin edilib. Ərazidə yaşıllıq zonası salınıb, 200-dən çox yeni ağac əkilib.

Birnövbəli sistemlə məktəbdə 150 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 23 nəfər müəllim məşğul olur. Tədris Azərbaycan dilində aparılır.

**AZƏRTAC**

# BMU-da "Bilik Günü"






**Bilik Günü münasibətilə Bakı Mühəndislik Universitetində tədbir keçirilib. Tədbirdə tələbələr, onların valideynləri, universitetin rəhbərliyi və kollektivi ilə yanaşı Abşeron rayon ictimaiyyətinin, eləcə də iş dünyasının nümayəndələri iştirak edib.**

**Universitetin rektoru, professor Havar Məmmədov** yeni dərs ili münasibətilə tədbir iştirakçılarını təbrik edib və uğurlar arzulayıb. Rektor qeyd edib ki, Azərbaycan Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Bakı Mühəndislik Universiteti bu il ikinci tələbə qəbulunu həyata keçirib. Bu il yeni mühəndislik ixtisaslarına da qəbul aparılmışdır. Bu il ödənişli və dövlət sifarişli ixtisaslar daxil olmaqla ümumilikdə Bakı Mühəndislik Universitetinə 1123 tələbə qəbul olmuşdur.

Rektor, əsasını ümummilli liderimiz Heydər Əliyevin qoyduğu təhsil sistemimizin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən islahatlarla daha da təkmilləşdirildiyini qeyd edib. Bildirib ki, ölkə rəhbərliyinin ali təhsil müəssisələrinə və müəllimlərə olan diqqət və qayğısı təhsilin və tədrisin keyfiyyətinin artırılmasına hərtərəfli imkan verir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun sədri Elçin Babayev, YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev, Abşeron Rayon Təhsil Şöbəsinin müdiri Nazilə Məmmədova və Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın direktoru Nizami Əhmədov çıxış edərək tələbə adını qazananları təbrik edib və BMU-nun ictimaiyyətlə və orta məktəblərlə olan əlaqələrindən danışıblar.

İş dünyasını təmsil edən "Veysəloğlu" şirkətinin biznesə dəstək üzrə baş direktoru İlqar Nuri və "Gilan Holding"in İnsan Resursları Departamentinin direktoru Allahverdi Bağırov çıxışlarında BMU-nun iş dünyası ilə əlaqələrinin örnək olduğunu və məzunlarının iş dünyasında özlərini doğrultmalarından danışaraq tələbə adını qazananları təbrik ediblər və uğurlar arzulayıblar.

Ən yüksək balla BMU-nun tələbəsi adını qazanmış Zöhrə İsmayılova və onun valideyni Qətibə İsmayılova çıxış edərək sevinclərini tədbir iştirakçıları ilə bölüşüblər.

Sonda 650-dən yuxarı bal toplayaraq tələbə adını qazanmış 48 tələbəyə universitetin və "Veysəloğlu" şirkətinin hədiyyələri təqdim olunub.

**M.MİRZƏ,**
**"Respublika".**

# "Bilik Günü" xoş ovqat və yüksək əhval-ruhiyyə ilə qeyd edildi






Lənkəran Dövlət Universiteti cənub bölgəsində yeganə ali təhsil ocağıdır. 2018-2019-cu tədris ilində universitetə 977 bakalavr və 64 magistr qəbul olunub. Aynur Əliyeva imtahanlardan 645 bal, Leyla Heydərova 611 bal toplayaraq ən yüksək nəticə ilə universitetin tələbəsi adını qazanıblar. Hazırda burada 27 ixtisas üzrə 3500 nəfərə yaxın tələbə təhsil alır.

Təhsil ocağının professor-müəllim heyəti və tələbə kollektivi "Bilik Günü"nü xoş ovqatla, yüksək əhval-ruhiyyə içində qeyd ediblər. 2 nömrəli tədris korpusunun həyətində keçirilən bayram tədbirinə universitetin kollektivi, tələbə və magistrlər, valideynlər, rayon ictimaiyyətinin nümayəndələri toplaşmışdılar. Əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

**Universitetin rektoru vəzifəsini icra edən riyaziyyat elmləri doktoru, professor Natiq İbrahimov** kollektivi yeni tədris ilinin başlanması və "Bilik Günü" münasibəti ilə təbrik edərək birinci kursa qəbul olunmuş tələbə və magistrlərə xoş arzularını söylədi. Ali təhsil ocağında yaradılmış nümunəvi təhsil mühitindən, kadr hazırlığı sahəsində görülən işlərdən danışdı.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Möhübbət Babayev, universitetin sosial məsələlər üzrə prorektoru Kamran Kazımov, ictimai şuranın sədri Sərhad Məmmədov, valideynlərdən Sahilə Heydərova, Azad Mirzəyev, yüksək balla universitetə qəbul olunmuş tələbə və magistrlər ölkəmizin təhsil sistemində Lənkəran Dövlət Universitetinin qabaqcıl yerlərdən birini tutduğunu vurğulayaraq gənclərin təhsilinə, hərtərəfli inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirdə tələbə və magistrlərin bir qrupuna bilet və planşetlər təqdim olundu.

Sonra tədris korpusunda müasir tələblərə cavab verən yeməkxana kollektivin istifadəsinə verildi.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# BSU-da "Bilik Günü" qeyd olunub

Sentyabrın 15-də Bakı Slavyan Universitetində (BSU) Bilik günü ilə bağlı tədbir keçirilib. Tədbirin əvvəlində universitetin foyesində yerləşən ulu öndər Heydər Əliyevin büstü önünə əklil qoyulub, sonra Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan **BSU-nun rektoru, professor Nurlana Əliyeva** tələbələri yeni tədris ili münasibətilə təbrik edərək onlara dərslərində uğurlar arzulayıb. Rektor bildirib ki, son illər ölkəmizdə humanitar sahədə qazanılan uğurların dövlət başçısı cənab İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatların, ölkənin birinci xanımı Mehriban Əliyevanın təhsil obyektlərinin yeniləşməsi sahəsində gördüyü işlərin və dövlətimizin bu sahəyə xüsusi qayğısının nəticəsi kimi dəyərləndirilməlidir. Rektor universitetin qarşıda duran məqsədlərindən söz açaraq deyib ki, hazırda Bakı Slavyan Universiteti regionun xarici ölkə universitetləri ilə beynəlxalq əməkdaşlıq quran ən fəal universitetlərindən birinə çevrilib. Bu əlaqələri inkişaf etdirməklə dünya təhsilinin ən mütərəqqi ənənələrini universitetimizdə tətbiq etmək, tədris və tərbiyə sahəsində yeni uğurlara imza atmaq, universitetin maddi-texniki bazasını beynəlxalq standartlara uyğunlaşdırmaq başlıca məqsədimizdir.

Sonra BSU tələbələrinin hazırladığı bədii kompozisiyalar, şeirlər, milli rəqslər təqdim olunub.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxışında ölkədə təhsil məsələləri ilə bağlı görülən işlərdən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təhsilə olan diqqət və qayğıdan danışdı.

Tədbirdə bu il Bakı Slavyan Universitetinə yüksək bal toplayaraq qəbul olan tələbələrə rektor Nurlana Əliyeva tərəfindən hədiyyələr təqdim olunub. BSU-nun filologiya və xarici dil müəllimliyi fakültəsinə 622 balla qəbul olan birinci kurs tələbəsi Sitarə Şahmuradlı, 599 bal toplayan Aytac Hüseynli qazandıqları müvəffəqiyyətlə bağlı öz təəssüratlarını bölüşüblər.

Millət vəkilləri Qənirə Paşayeva və Elman Nəsirov BSU-ya yüksək göstərici ilə qəbul olan gəncləri təbrik edərək, onlara təhsil sahəsində uğurlar arzulayıblar.

Tədbirdə Qırğızıstan Respublikasının Azərbaycandakı sabiq səfiri Ayciqit Buranov, millət vəkilləri Sahibə Qafarova, Kamilə Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, təhsil ekspertləri Şahlar Əsgərov, Nadir İsrafilov və mətbuat nümayəndələri iştirak ediblər.

Tədbir konsert proqramı ilə davam edib.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# Tələbə biletləri təqdim olundu



Azərbaycan Texnologiya Universitetində (UTECA) "Bilik Günü" qeyd olunub. **Universitetin rektoru, professor Akif Süleymanov** çıxış edərək professor-müəllim heyətini və tələbələri yeni dərs ili münasibəti ilə təbrik etdi. Qeyd etdi ki, bu tədris ilində UTECA-ya 765 tələbə qəbul olunub. UTECA-ya bu il qəbul olan tələbələr arasında 4 nəfər 500-dən çox bal toplayıb. Emin Axundov - 562 bal, Günel Sadıqova - 553 bal, Murad Hacıyev - 528 bal, Aydın Ələsgərov - 503 bal toplayaraq tələbə adını qazanıblar. Professor Akif Süleymanov 562 bal toplayaraq proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olan Emin Axundovaya universitet adından noutbuk hədiyyə edib. Daha sonra tələbə adını yeni qazananlardan yüksək bal toplayanlara tələbə biletləri təqdim olunub. Çıxış edən tələbələr və valideynlər ölkəmizdə təhsilə göstərilən diqqətə görə ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

Ümumilikdə, Azərbaycan Texnologiya Universitetində tələbələr 23 ixtisas üzrə təhsil alırlar. UTECA gələcək mütəxəssisləri bugünkü əmək bazarının tələblərinə uyğun yetişdirir. Bunun üçün ən nüfuzlu sənaye müəssisələri ilə əməkdaşlıq edərək təhsil müddətində tələbələrin istehsalata inteqrasiyasını təmin edir, nəticədə məzunların işlə təmin olunması daha əlçatan olur. Port of Baku, Şəmkir Logistika Mərkəzi, Azercell, Gəncə və Mingəçevir tekstil fabrikləri, Detal Alüminium kompleksi, Azgranata Şirə və şərab emalı zavodu, Palsüd və Atena süd zavodları kimi onlarla müxtəlif müəssisələr buna misaldır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Nərimanov rayonu*

# Təhsilin keyfiyyətinin yaxşılaşdırılması diqqət mərkəzində olacaqdır

**Bakının Nərimanov rayonunda son illər təhsildə geniş islahatlar müşahidə olunur. Rayonda məktəb tikintisi, xüsusən təhsilin maddi-texniki bazasının gücləndirilməsinə, müəllim hazırlığına maksimum səy göstərilir. Məktəblərdə ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsinə geniş diqqət yetirilir, təhsil sistemində baş verən dəyişikliklərə qiymət vermək baxımından əhəmiyyətli iş görülür.**

2017-2018-ci tədris ilində ümumtəhsil məktəblərində işin keyfiyyətinin artırılması məqsədilə bir sıra layihələr, təlimlər, müsabiqələr, tədbirlər və görüşlər təşkil edilib. Məhz buna görə də məktəblərdə uğurlu nəticələrə imza atılmışdır.

Rayonun 304 nömrəli məktəbində Bilik Gününə, yeni dərs ilinə mütəşəkkil hazırlıqla başlanılmışdır. Yeni dərs ilinə həsr olunmuş tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, valideynlər, şagird və müəllimlər iştirak edirdilər.

Yeni dərs ilinə həsr olunmuş mərasimdə məktəbin direktoru, gözlərinin nurunu, qəlbinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə həsr edən **İradə Hüseynova** çıxış edərək dedi:

—Qürur hissi ilə qeyd etmək lazımdır ki, 2017-2018-ci dərs ilində məktəbin məzunlarından 80 faizi ölkəmizin müxtəlif ali məktəblərinə qəbul olmuş, respublika üzrə keçirilən 1-ci qrant müsabiqəsinin qalibi kimi tanınmışlar. Dərs ili dövründə məktəblərdə mütərəqqi metodların tətbiqinə üstünlük verilmişdir.



Müəllimi müəllim edən nədir? Onun bənzərsiz şəxsiyyəti, azadlığı və cəsarəti. Məhz buna görə də müəllimlərimizin hər biri işinə məsuliyyətlə yanaşır, valideynlərlə ünsiyyətə üstünlük verir, müasir məktəbin inkişafı innovasiyalar vasitəsilə həyata keçirilir, tədris, təlim prosesində fəal təlim metodlarından səmərəli istifadə olunur.

Cari dərs ilində məktəbdə 250 nəfərə yaxın şagird təhsil alacaqdır ki, onların təlim-tərbiyəsi ilə 50 nəfər müəllim məşğul olacaqdır.

Yeni dərs ilinə həsr olunmuş tədbirdə valideynlərdən V.Hacıyeva, Ə.Sovqatova, XI sinif şagirdi G.Xəlilova və başqaları çıxış etdilər, əminliklə bildirdilər ki, 2018-2019-cu dərs ilində məktəbin maddi-texniki bazası daha da möhkəmlənəcək və uğurlu nəticələrə imza atılacaqdır.

İlk dərs günündə məktəbdə I-IV siniflərdə ilk dərs "Vətənim Azərbaycan", V, IX siniflərdə "Dövlət rəmzləri —müstəqilliyimizin simvolu", XI sinifdə "Azərbaycan Xalq Cümhuriyyəti — Dövlətçiliyimizin Bayraqdarı" mövzusunda keçirildi.

**Qədir ASLAN,**
**"Respublika".**

*Azərbaycan Xalq Cümhuriyyəti - 100*



# Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin nəşri





AZƏRBAYCAN
XALQ CÜMHURİYYƏTİNİN
QURUCULARI

> **“Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz”.**
>
> **Heydər ƏLİYEV.**

## Əsgər Rəsulov: MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZİN ETİBARLI SAXLANCI

Epiqraf seçilən kəlam müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xalqımızın tarixinə və bu tarixin yazılmasına ciddi münasibətinin göstəricisidir. Həqiqətən də, xalq öz keçmişini bilməyəndə, gələcəyini də qura bilmir. Keçmiş isə, ilk növbədə, yaddaşlarda yaşayır. Yazılı (kağız əsaslı və rəqəmsal), görüntülü (kino-foto) və səsli (fono) arxiv sənədləri isə xalqın milli-faktoloji yaddaşı, maddi-mənəvi sərvətidir. Mükəmməl arxivi olan xalqın etibarlı qorunan tarixi mirası var deməkdir. Arxiv sənədləri bu baxımdan xalqın öz tarixini öyrənmək, dərk etmək, ondan faydalanmaq və ibrət dərsi götürmək üçün əvəzsiz mənbələrdir. Ümummilli lider Heydər Əliyevin aşağıdakı müdrik düşüncəsi arxiv xidmətinin siqlətini, arxiv sənədinin dəyərini, arxiv işinin siyasi və elmi-tarixi əhəmiyyətini dəqiq və sərrast ifadə edir: *“Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkinci də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir”.*

Hazırda bilavasitə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin tabeliyində sənədlərin istifadə edilmək məqsədilə qəbulunu, saxlanmasını və uçotunu həyata keçirən 6 dövlət arxivi (Azərbaycan Respublikası Dövlət Arxivi, Dövlət Tarix Arxivi, Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Dövlət Elm və Texnika Sənədləri Arxivi, Dövlət Kino-foto Sənədləri Arxivi, Dövlət Səs Yazıları Arxivi), eləcə də Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 57 rayon (şəhər) dövlət arxivi fəaliyyət göstərir. Bu arxivlərdə 15000-dən artıq fond, 3,7 milyona yaxın saxlama vahidi, 650 milyon vərəqdən artıq kağız əsaslı, 450 minə yaxın kino-foto və fono-video sənəd mühafizə olunur.

Sözügedən arxiv fondlarından 163-ü Azərbaycan Xalq Cümhuriyyətinin may 1918 - aprel 1920-ci illər arasındakı fəaliyyəti dövrünə aiddir. Azərbaycan Respublikasının Dövlət Arxivində qorunan həmin fondlarda Cümhuriyyətin quruluş mərhələsini, Parlamentinin və 5 Hökumətinin Tiflis, Gəncə və Bakıdakı 23 aylıq fəaliyyətini əks etdirən 26299 saxlama vahidindən ibarət arxiv sənədləri qorunmaqdadır. Bu sənədlər, eləcə də dövlət arxivlərinin müxtəlif fondlarında və elmi məlumat kitabxanasında mühafizə edilən sənəd və materiallar şahidlik edir ki, XX əsrin ilk iki onilliyində xalqımızın tarixində baş verən taleyüklü hadisələr - Azərbaycan Milli Şurasının yaradılması, dövlət müstəqilliyimizin rəsmi Aktı olan “İstiqlal Bəyannaməsi”nin qəbulu, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və Azərbaycanın defakto müstəqil dövlət kimi tanınması - Şərqin ilk demokratik və parlamentli dövlətində baş vermişdir. Bu cahanşümul hadisələr millətimizin əsrlər boyu öz içində daşıdığı azadlıq və müstəqillik arzusunun gerçəkləşməsinin, suveren Azərbaycan xalqının milli mənlik şüurunun özünə qayıtmasının və öz müqəddəratını təyin etməyə qadir olmasının sübutu idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il keçməsinə baxmayaraq, dövlətçilik tariximizdəki rolu daima minnətdarlıq və qədirşünaslıqla xatırlanmış, bu mirasa böyük diqqət və ehtiramla yanaşılmışdır. Bu gün də Cümhuriyyətin tarixi, onun görkəmli şəxsiyyətlərinin fəaliyyəti dərindən öyrənilir, ideyaları təbliğ edilir, təcrübələrindən bəhrələnilir. Ulu öndərin Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə münasibət baxımından söylədiyi aşağıdakı sözlər xalqımızın dövlətçilik və müstəqillik fəlsəfəsini izah edir: *“Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. İndiki Azərbaycan dövlətinin yeritdiyi siyasət, qazanılan uğurlar belə bir fikri əminliklə söyləməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə itirdiyimiz müstəqilliyi bir də heç zaman əldən verməyəcək, onu qoruyub saxlayacaq, dönməz, sarsılmaz və əbədi edəcəyik”.*

Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrini davam etdirən xalqımız bu tarixi varislik üzərində öz müstəqil dövlətini yaratdı və ümummilli liderin qətiyyəti sayəsində onu qoruyub saxlamaq mümkün oldu. Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider də yetişdirdi. Bu gün respublikamızda bütün sahələrdəki dayanıqlı sosial-iqtisadi inkişaf və uğurlar, ictimai-siyasi sabitlik və dövlətimizin dünyada artan nüfuzu müstəqilliyimizin, eləcə də ulu öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik keyfiyyətlərinin, öz xalqına qəlbən bağlılığının, milli dövlətçilik fəlsəfəsinə, azərbaycançılıq ideologiyasına və bütün demokratik ənənələrə sadiqliyinin bəhrəsidir.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və hökumətlərinin fəaliyyəti dövrünə aid əvəzsiz mənbə olan arxiv sənədləri və materialları ilk dəfə toplu halda 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında” 1998-ci il 30 yanvar tarixli və “Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında” 1998-ci il 22 fevral tarixli sərəncamlarına əsasən işıq üzü görmüşdür. Ümumi həcmi 5000 səhifəyə yaxın olan 6 adda 7 cildlik topluda Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçiliyi, qanunvericilik fəaliyyəti, daxili və xarici siyasəti, ordu quruculuğu, hüquq-mühafizə sistemi və başqa mühüm sahələrdə gördüyü işlər geniş əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənmək üçün oxucuların və tədqiqatçıların ixtiyarına verilmiş bu misilsiz çoxcildlik mənbə ulu öndərin Azərbaycan tarixinin şanlı səhifələrini yazan dövlət xadimlərinin şərəfinə ucaltdığı ilk möhtəşəm abidə idi.

Azərbaycan Xalq Cümhuriyyəti şərəfinə sonrakı tarixi əhəmiyyətli tədbirlər — 25 may 2007-ci ildə Bakıda ucaldılmış “İstiqlal Bəyannaməsi” abidəsinin açılışı, ikicildlik “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası”nın nəşri, “Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında” 2008-ci il 15 fevral tarixli və “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” 2017-ci il 16 may tarixli sərəncamlar ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, xalqımızın tarixi keçmişinin öyrənilməsini və dövlət müstəqilliyimizin təbliğini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 illik fəaliyyəti dövründə həyata keçirilmişdir.

Prezident İlham Əliyevin ölkəmizin ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanan “2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında” 10 yanvar 2018-ci il tarixli Sərəncamında 100 il əvvəl mayın 28-də Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Azərbaycan xalqının həyatında misilsiz hadisə kimi qiymətləndirilir. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğu, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırladığı qeyd edilir. Prezident İlham Əliyevin yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi barədə fikirləri xalqımıza, onun tarixinə və bu gününə verilən ən gözəl dəyərdir: “Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq”.

Müstəqillik illərində Azərbaycan Xalq Cümhuriyyətinə aid arxiv fondlarında mühafizə olunan sənəd və materiallardan 200-dən artıq elmi tədqiqatçı istifadə etmiş, dissertasiya, monoqrafiya və məqalələr yazmışlar. Milli Arxiv İdarəsi və Dövlət arxivləri əməkdaşları tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinə dair çoxcildlik sənəd topluları hazırlanmış, yüzlərlə elmi və publisistik məqalə qələmə alınmışdır. “Azərbaycan Xalq Cümhuriyyəti İli”ndə də çoxşaxəli tədbirlər həyata keçiriləcək, toplular tərtib ediləcək, kitablar və məqalələr yazılacaqdır. Əminik ki, bütün bunlar şanlı tariximizin daha dərindən öyrənilməsinə, xalqımızın, xüsusilə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə, milli dövlətçilik və azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşməsinə xidmət edəcəkdir.

* * *

Kitabdakı “İstiqlal bəyannaməsi”, “Əlimərdan bəy Topçubaşov”, “Fətəli Xan Xoyski”, “Nəsib bəy Yusifbəyli”, “Məmməd Xan Təkinski” məqalələri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Ataxan Paşayev; “Aslan bəy Kriçinski” məqaləsi Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Komplektləşdirmə, idarə arxivləri və kargüzarlıq şöbəsinin müdiri Həsən Həsənov; “Azərbaycan Xalq Cümhuriyyəti hökumətlərinin Xalq Maarifi nazirləri”, “Həmid bəy Şahtaxtinski”, “Azərbaycan Xalq Cümhuriyyətində Milli Ordu quruculuğu”, “General-mayor Teymur bəy Novruzov”, “General-mayor Süleyman bəy Əfəndiyev”, “Əhməd bəy Ağayev”, “Firudin bəy Köçərli”, “Üzeyir və Ceyhun Hacıbəyov qardaşları” məqalələri Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi Rafiq Səfərov; “Şərqdə ilk demokratik hüquq dövləti”, “Azərbaycan Xalq Cümhuriyyətində dövlət quruculuğu” məqalələri Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru Emin Sərdarov; “Arxivlər açılanda”, “Atasına layiq oğul”, “Məmməd Yusif Cəfərov”, “Müstəqillik fədaisi”, “Yusif Vəzir Çəmənzəminli” məqalələri Azərbaycan Respublikası Dövlət Arxivinin direktor müavini, filologiya elmləri namizədi Sima Babayeva; “Cavad bəy Məlik-Yeqanov”, “Azərbaycan Xalq Cümhuriyyətinin ən gənc mühaciri Ceyhun Hacıbəyli”, “Azərbaycan Xalq Cümhuriyyətinin fəal publisisti Üzeyir Hacıbəyov” məqalələri S.Mümtaz adına Dövlət Ədəbiyyat İncəsənət Arxivinin direktoru müavini Aslan Kənan (Qasımov) tərəfindən yazılmışdır. ■



AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
(1918-1920)

TƏHSİL SİYASƏTİ
SƏNƏDLƏR TOPLUSU

АЗЕРБАЙДЖАНСКАЯ
ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА
(1918-1920)

ПОЛИТИКА ПРОСВЕЩЕНИЯ
СБОРНИК ДОКУМЕНТОВ

*1918-ci il 28 may tarixində Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və 23 aylıq mövcudluğu bu qısa tarixi zaman ərzində ölkəmizin həyatında yeni bir dövrün təməlini qoydu.

Azərbaycan müstəqilliyini elan etdiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış Hökumət Kabinəsində Xalq Maarif Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi bu nazirlik öz fəaliyyətinə respublikada təhsilin səviyyəsinin müəyyənləşdirilməsi ilə başladı. Bununla əlaqədar Xalq Maarif Nazirliyinin yaranması üçün nazirlik tərəfindən plan hazırlanıb Hökumətə təqdim edildi. Planda göstərilən təkliflər Hökumət tərəfindən qəbul edildi və 1918-ci il iyun ayının 30-da Hökumətin xüsusi qərarı ilə Xalq Maarif Nazirliyinin ştat tərkibi təsdiq olundu.

